Milli Qurtuluş xalqımızın xilas günüdür

Hamımız üçün çox doğma və əziz olan Heydər Əliyev dünya şöhrətli siyasətçi, zəmanəsinin ən böyük şəxsiyyəti idi. O, Azərbaycanın güclü, inkişaf etmiş qüdrətli dövlətə çevrilməsində, sənayemizin, kənd təsərrüfatımızın, sosial-iqtisadi sahələrin güclənməsi yolunda əlindən gələni əsirgəməmişdir. O, əvəzsiz, yeri görünən çox müdrik şəxsiyyət idi. Qazandığımız müstəqilliyə, əldə olunan sabitliyə, həyatımızdakı inkişafa və tərəqqiyə görə biz bu böyük şəxsiyyətə çox borcluyuq.

Heydər Əliyev bütün mənalı ömrünü yalnız insanlığa xidmət göstərməyə sərf etmişdi. Bu böyük şəxsiyyət Azərbaycan xalqının təhlükəsiz yaşaması, azadlıq haqqını tapması uğrunda mübarizə aparmışdı. "Haqqı tapdanan insanların arxasında güclü dövlət durmalıdır, ədalət durmalıdır". Bu ideya və prinsiplər Heydər Əliyevin istər milli təhlükəsizlik orqanlarında, istər Sovet dönəmindəki siyasi fəaliyyətində, istərsə də müstəqil Azərbaycanın Prezidenti olduğu 10 ildə həyat devizi, amalı olub.

Heydər Əliyev respublikamızın hansı bölgəsinə ayaq basıbsa, xalq onu ən əziz adamı kimi qarşılayıb, qədəmləri altında qurbanlar kəsib, gəlişinə sevinib. Hər bir böyük siyasətçinin qibtə edəcəyi bir ömür yaşadı Heydər Əliyev. Ulu öndər zəngin, mübarizələrlə və qalibiyyətlə dolu həyatının hər gününü, hər anını doğma xalqına bağışladı. Bu xalqı parçalanmaqdan, məhv olmaqdan, əzilməkdən və əyilməkdən xilas etdi, onu dünyada layiq olduğu şöhrətə çatdırdı. Ümummilli liderimiz müstəqil Azərbaycan dövlətini qurdu. Bu gənc və zəif dövləti öz qüdrətli əllərilə ayağa qaldırdı, möhkəmləndirdi, xarici düşmənlərdən və daxildəki xəyanətkarlardan qorudu. Heydər Əliyev Azərbaycan dövlətinə, xalqına yönələn bütün zərbələrə qarşı öz polad sinəsini sipər etdi.

60-cı illərin sonuna qədər Azərbaycan keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında sosial-iqtisadi göstəricilərinə görə geridə qalan aqrar ölkə kimi tanınırdı. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə 70-80-ci illərdə respublikada sosial-iqtisadi sahədə zox böyük işlər görülmüş və yüksək nailiyyətlər əldə edilmişdir.

XX əsrin sonlarında xalqımız özünün müstəqillik mübarizəsinin nəticəsi kimi dövlət suverenliyinin yenidən bərpasına nail oldu. Şübhəsiz ki, özünün tarixi keçmişi baxımından zəngin dövlətçilik ənənələrinə malik olan xalqımız bu müstəqilliyə layiq təkamül yolu keçmiş, böyük qurbanlar bahasına azad ölkədə yaşamaq haqqı qazanmışdır. Lakin o da bir gerçəklikdir ki, respublikamızın dövlət müstəqilliyini bərpa etdiyi tarixi şərait SSRİ-ni süquta aparan, bütövlükdə dünyada gedən və dünyanın siyasi xəritəsinin yenidən çəkilməsi kimi xarakterizə edilən qlobal proseslərlə müşayiət edilirdi. Azərbaycan özünün müstəqilliyinin ilk illərindən yeni geosiyasi vəziyyətin diktə etdiyi ciddi siyasi, iqtisadi, sosial və idarəçilik problemləri ilə qarşılaşmalı oldu. Ermənistanın hərbi təcavüzünün nəticəsi kimi ortaya çıxan Dağlıq Qarabağ problemi və iqtisadi tənəzzül, hüquqi qeyri-müəyyənlik, siyasi tətlatümlər, zorakılıqlarla müşayiət olunan hakimiyyət ambisiyaları dövlət həyatını və cəmiyyəti idarəolunmaz vəziyyətə gətirmişdi. Bütövlükdə isə bu problemlər milli təhlükəsizliyi və müstəqilliyin özünün mövcudluğunu ciddi təhdid edəcək səviyyəyə qədər qalxmışdı. Təsadüfi deyildir ki, Azərbaycanın müasir müstəqillik tarixinin araşdırıcıları da həmin dövrü - 1991-1993-cü illəri - xaosun, anarxiyanın, böhranın dərinləşdiyi, dövlətin parçalanma, millətin isə məhv olma təhlükəsi ilə qarşı-qarşıya qaldığı dövr kimi qiymətləndirərək "formal müstəqillik" mərhələsi kimi xarakterizə edirlər.

1993-cü ilə qədər ölkəmiz elə vəziyyətə düşmüşdü ki, Azərbaycanın bir dövlət kimi mövcudiyyəti şübhə altında idi. Elə bir xaos, özbaşınalıq şəraiti yaranmışdı ki, bundan baş çıxarmaq hər kəsin işi deyildi, yaxın gələcəkdə respublikada sabitliyin bərpa olunacağına bütün dünya şübhə ilə yanaşırdı. Problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi, ümidlər yalnız ona idi.

90-cı illərin əvvəllərində Moskvada bir materiallar toplusu çıxmışdı: "Naşe delo", "Ya tak dumayu". Burada Heydər Əliyevin müsahibələri, eyni zamanda mövcud ictimai-siyasi proseslərlə bağlı şərhləri, mərkəzdə oturan rəhbərlərin, xüsusən M.Qorbaçovun satqınlığı, mövcud böhrandan çıxmaq yolları barədə fikirləri verilmişdi. O zaman xalqın belə materiallara böyük ehtiyacı var idi. Lakin onu yaymaq böyük risk tələb edən iş idi. Biz bu gərgin şəraitdə toplunun geniş yayılmasına nail olduq.

Ümumiyyətlə, həmin dövrdə ziyalıların çoxu Heydər Əliyevin yanına getməyə, onunla məsləhətləşməyə can atırdılar. Şübhəsiz, həmin şəxslərin adları o dəqiqə Vəzirovun, Mütəllibovun stolunun üstündə olurdu və onlara qarşı müxtəlif cəza tədbirləri tətbiq olunurdu. Naxçıvana gedə bilməmək üçün aeroportda müxtəlif maneələr yaradırdılar. Belə olanda bir çoxları Gəncəyə gəlirdilər. Burada Əli müəllimlə (atamla) məsləhətləşirdilər. Biz onlara Naxçıvana uçmağa kömək edirdik.

Artıq Gəncəbasar bölgəsində böyük bir ziyalı qrupu toplaşmışdı və onlar Heydər Əliyev haqqında həqiqətləri xalqa çatdırmaq üçün hər vasitədən istifadə edirdilər. Gəncə Kənd Təsərrüfatı Akademiyasının rektoru Məmmədtağı Cəfərov, professor Oruc Abdullayev, Milli Məclisin üzvü, professor Asəf Hacıyev, akademik Vahid Hacıyev, Səlahəddin Quliyev, Ramiz Mirzəyev və onlarca digər hörmətli ziyalılarımız bu işlərdə əsl vətənpərvərlik nümunəsi göstərir və o vaxtkı bütün qadağa və təqiblərə baxmayaraq, xalqın istəyinə uyğun olaraq Heydər Əliyevin hakimiyyətə qayıtması uğrunda çalışırdılar. Həmin dövrdə Əli Aslanovun evi qərargaha çevrilmişdi.

O günləri xatırlayanda AXC-Müsavat hakimiyyəti dövründə ölkənin müxtəlif rəhbər orqanlarına atamın yazdığı məktublar, teleqramlar yada düşür. Sözü bu idi ki, Heydər Əliyev respublika rəhbərliyinə dəvət olunsun. 1992-ci ilin 16 aprelində özü birbaşa Heydər Əliyevə məktub yolladı (həmin məktubu və sonra göndərilən məktubları atamın əziz yadigarı kimi saxlayıram). Məktubda deyilirdi: "Möhtərəm Heydər Əlirza oğlu! Respublikamız böhran içindədir. Xalqı bu faciədən yalnız Siz xilas edə bilərsiniz. Sizdə bu qabiliyyət, qətiyyət, təcrübə, savad və mənlik vardır. Ona görə də artıq dərəcədə xahiş edirəm, tezliklə Azərbaycan Respublikası Prezidentliyinə öz namizədliyinizi verəsiniz. Xalqımızın ümidi yalnız Sizədir. Ölkəni bu bəladan yalnız Siz xilas edə bilərsiniz.

Dərin hörmətlə, Əli Aslanov".

Bundan sonra həmin dövrdə Yaqub Məmmədova, AXCP rəhbərliyinə və digərlərinə isə Heydər Əliyevin dəvət edilməyinin yeganə düzgün addım olduğunu, xilaskarlıq missiyasının yalnız Heydər Əliyevə məxsus olduğunu əsaslandırır və onlara Heydər Əliyevi dəvət etməyi tövsiyə edirdi.

Xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyin nicatını ancaq böyük şəxsiyyət və siyasətçi Heydər Əlirza oğlu Əliyevdə görərək onu təkidlə Bakıya dəvət etdi. Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi.

Heydər Əliyevin respublika rəhbərliyinə bu böyük qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Elə o zaman Heydər Əliyev çıxışlarının birində belə demişdi: "Azərbaycan bərbad vəziyyətdədir, bəzi adamlar on gündür ki, barmaq-barmağa vurmayıblar. Kabinetlərdə boş-boş şayiələrlə məşğul olurlar. Mən heç kəsə heç bir qarantiya vermirəm. Mən özümü peyğəmbər hesab etmirəm. Fəqət bu ağır vəziyyətdən çıxmaq üçün fəaliyyət göstərəcəyəm". Bəli, indi bu fəaliyyətin nəticələri artıq hər birimizə bəllidir. Məhz bu fəaliyyətin hesabına Azərbaycan yaşayır, tərəqqi edir.

O dövrdə müdrik rəhbərin qısa zaman kəsiyində həyata keçirdiyi tədbirlərlə cəbhə xəttində atəşkəsə nail olundu, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Bununla da respublika ərazisində stabil, normal həyat bərqərar olundu.

Burada bir məqamı da nəzərə çatdırmaq istərdim. 1994-cü il oktyabr və 1995-ci ilin mart hadisələrində ölkəmizdə xarici düşmənlərin təsiri altına düşmüş daxili qüvvələr tərəfindən dövlət çevrilişinə cəhd göstəriləndə bunun qarşısının alınması məqsədilə Şəmkir rayonunda, qərb bölgəsində mənim rəhbərliyim altında xüsusi qərargah yaradılmışdı. O zaman ulu öndərin ölkədə sabitliyin qorunub saxlanması üçün verdiyi tapşırıqları nə qədər çətin və ağır olsa da, qətiyyətlə yerinə yetirirdik. Yaxşı xatırlayıram: həmin günlər od-alov içində keçirdi. İndi bununla fəxr duyuram ki, dahi rəhbərin mənə verdiyi tapşırıqları ləyaqətlə yerinə yetirmişəm...

Yaxşı yadımdadır, Azərbaycanı xilas etmiş Milli Qurtuluş Gününün, yəni Heydər Əliyevin Ali Sovetə sədr seçilməsinin dövlət səviyyəsində qeyd edilməsi məqsədilə Milli Məclisdə, respublikanın əmək kollektivlərində Heydər Əliyevi sevən, ona rəğbətlə yanaşan ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələrinin fikirləri irəli sürülür, müraciətlər qəbul olunurdu.

Bu ərəfədə Şəmkirdə qonaq olan Gürcüstan Respublikasının Konstitusiya Məhkəməsinin sədri Avtandil Demetraşvili Azərbaycan televiziyasında deputatlarımız tərəfindən 15 iyunun Qurtuluş Günü kimi qeyd olunması ilə bağlı müraciətlərə baxır və Azərbaycan xalqının, eyni zamanda deputatların necə məhəbbətlə həmin günün bayram edilməyi təkliflərini görür, eşidir və məndən soruşurdu, heyrətini gizlədə bilmirdi. Çünki belə bir tədbir Şəmkir rayonunda da keçirilmişdi və həmin tədbirdə o da iştirak etmişdi.

Axşam saatlarında o məndən xahiş etdi ki, onun Heydər Əliyevlə telefon danışığına yardımçı olum.

Heydər Əliyev A.Demetraşvilini çox yaxşı tanıyırdı.

Mən ulu öndərlə telefon əlaqəsi yaratdım. Çox məzmunlu danışıq zamanı o, televiziyada və Şəmkirdə izlədiyi ulu öndərə olan xalq məhəbbətini şəxsən Heydər Əliyevə çatdırdı və bildirdi ki, XX əsr bəşəriyyətə çox nadir şəxsiyyətlər hədiyyə edib. Onlardan Şarl de Qoll, Atatürk və Sizsiniz. Mən də bu günlərdə Şəmkirdə bu hadisələrin şahidi olduğum üçün sevinir və Sizdən xahiş edirəm ki, xalqın istəyinə razılıq verəsiniz. Sonra mənimlə danışarkən Heydər Əliyev qonağa diqqət göstərməyi tapşırdı və bildirdi ki, bu məsələ ilə bağlı artıq bir neçə müraciət olubdur. Amma mən razılıq versəm belə mən yox, bu məsələni Milli Məclis həll edir.

Həmin gün YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev şəmkirlilərin bu istəyini təşəbbüs olaraq Milli Məclisə göndərdi.

Çox yaxşı ki, Milli Məclisin üzvləri Milli Qurtuluş Gününün bayram günü kimi qeyd olunmasına yekdilliklə səs verdilər.

Burada möhtərəm Prezidentimiz İlham Əliyevin 2004-cü ildə Qurtuluş Günündə şəmkirlilərlə görüşündə dediyi sözləri diqqətə çatdırmaq istəyirəm: ***"Siz bütün dövrlərdə Azərbaycanın dövlətçiliyinə xidmət etmisiniz. Müstəqil Azərbaycanımızın, müstəqil dövlətimizin müstəqilliyini gücləndirmisiniz. Azərbaycan üçün ən çətin dövrlərdə şəmkirlilər Azərbaycan dövlətçiliyinə arxa və dayaq olmuşdur. Bunu bütün Azərbaycan bilməlidir".***

Sabitlik əldə olunandan sonra dövlət quruculuğu istiqamətində təxirəsalınmaz addımlar atıldı, bir çox mühüm qanunlar qəbul edildi. Bu da öz növbəsində dövlət institutunu möhkəmləndirdi. Ölkə iqtisadiyyatının dirçəlişi yönümündə də çoxsaylı vacib müqavilə və proqramlar imzalandı, xalq təsərrüfatının ayrı-ayrı sahələrində perspektiv layihələr, islahatlar həyata keçirildi. Odur ki, 1995-ci ildən iqtisadiyyatın hər sahəsində inkişaf açıq-aydın gözə çarpmağa başladı.

Azərbaycan dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun istifadə olunmasında ümummilli liderimiz Heydər Əliyevin uğurlu neft strategiyası olduqca xüsusi əhəmiyyət kəsb edir. 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi", 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin inşa olunmasına dair bağlanmış saziş Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynadı.

Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir, imzalar içində millətimizin də imzası görünür. Təkcə biz yox, bütün dünya bilir ki, "Əsrin müqaviləsi"nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşması Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına əfsanə kimi görünən layihələri yalnız ulu öndərimizin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində reallaşdırmaq mümkün olub.

Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır. 1995-ci ildə qəbul olunmuş ilk milli Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının qorunmasını öz siyasətinin prioriteti kimi qəbul etdi.

Heydər Əliyev bütün varlığı ilə sevdiyi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, inkişaf etmiş, sivil dünya dövlətləri cərgəsinə çıxarmaq, bir sözlə, arzusunda olduğu yeni Azərbaycanın reallaşması naminə var gücü ilə çalışırdı. Yorulmadan dünyanın böyük dövlətlərinin başçıları ilə saysız-hesabsız görüşlər keçirir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı. Bu səfərlər zamanı dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımızın vəziyyəti ilə maraqlanır, onların azərbaycançılıq ideyası ətrafında birləşməsi üçün böyük səy göstərir, bütün ölkələrdə soydaşlarımızın mənəvi və mədəni həmrəyliyinin yaradılmasına, Azərbaycan diasporunun formalaşmasına böyük önəm verirdi.

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" — deyən ulu öndərimiz 2001-ci ilin noyabrında Bakıda bütün dünya azərbaycanlılarının I qurultayının keçirilməsinə də nail oldu.

Böyük öndərimizin titanik fəaliyyətinin digər mühüm nəticəsi Azərbaycanın beynəlxalq aləmdə özünə layiqli yer tutması, dünyanın inkişaf etmiş dövlətləri ilə səmərəli əlaqələr çərçivəsində bərabərhüquqlu əməkdaşlığa nail olmasıdır. Ardıcıl, düşünülmüş xarici siyasət kursu Azərbaycan dövlətinə demokratik dəyərləri hər şeydən uca tutan, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quran, qonşuları ilə dinc şəraitdə yaşamağa üstünlük verən sülhsevər ölkə imicini qazandırmışdır. Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən tükənməz təbii sərvətləri, iqtisadi imkanları ilə yanaşı, mədəni, elmi, intellektual, yaradıcı potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində ölkəmizin dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar. Azərbaycan bu gün həm regional, həm də beynəlxalq təhlükəsizlik sisteminin qurulmasında fəal iştirak edir.

Respublikamız BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatların üzvüdür. NATO və Avropa Birliyi ilə səmərəli və işgüzar əlaqələr qurulub. Terrorçuluğa qarşı ümumdünya mübarizəsinin, ABŞ başda olmaqla yaradılmış koalisiyanın fəal üzvüdür. Ulu öndərimiz Heydər Əliyev yaratdığı möhkəm iqtisadi-siyasi bazaya əsaslanaraq tam arxayınlıqla deyirdi: "İnanıram ki, Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".

Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA-nın reallaşması da ümummilli liderimizin bəşəri xidmətlərindəndir. Heydər Əliyev deyirdi: "Heç bir ölkə, ən böyük ölkə də öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz... Tarixi böyük İpək Yolunun bərpası, milli və regional nəqliyyat strukturlarının, beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı Avrasiya məkanında sülhün, sabitliyin və tərəqqinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir".

Qeyd etmək istəyirəm ki, Heydər Əliyev kənd təsərrüfatının inkişafını prioritet sayır və daim diqqətdə saxlayırdı. 1993-94-cü illərdə təkcə kənd təsərrüfatı ilə bağlı 4 müşavirə keçirmişdir. Heydər Əliyev kənd təsərrüfatında islahatların əsasını qoymuş və inkişaf yollarını göstərmişdir. Ümumilikdə götürdükdə, ulu öndər Heydər Əliyev kənd təsərrüfatının inkişaf modelini qurdu, ölkə Prezidenti İlham Əliyev isə inkişaf strategiyasını müəyyən etdi. Həmin tədbirlərin nəticəsidir ki, ölkəmizdə kənd təsərrüfatı ildən-ilə inkişaf edir.

Yüksək humanizmə, uzaqgörənliyə, insanları düzgün tanımaq, mürəkkəb şəraitdən məharətlə xalqı çıxarmaq keyfiyyətlərinə malik olan ümummilli lider təsadüfi deyildir ki, XX əsrin görkəmli liderlərindən biri olmuşdur. Onun bənzərsiz dövlət xadimi kimi şöhrət qazanmasının səbəbi hər şeydən əvvəl digərlərindən fərqli olaraq yüksək mənəvi, yaradıcı keyfiyyətlərə malik olması, təşəbbüskar və cəsarətli olması və həm də onun xalq qarşısında duran mütərəqqi tələbi düzgün müəyyən edərək bütün fəaliyyətini dövlətin varlığına və onun durmadan inkişafına sərf etməsi olmuşdur.

Bütün bu illər ərzində əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacarmışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qalmışdır.

Sevindirici haldır ki, onun siyasi kursu bu gün də davam edir.

Böyük öndərimizin başladığı, lakin axıra çatdıra bilmədiyi işlər, əbədiyaşar ideyaları onun siyasi varisi, layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Bu işdə onun xanımı - YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var.

Azərbaycan özünün sürətli inkişafı sayəsində I Avropa Oyunlarına ev sahibliyi etmək hüququ qazanıb. Bu, Azərbaycanın iqtisadi inkişafının, siyasi sabitliyinin, təhlükəsiz dövlət olmasının, dünyanın aparıcı idman ölkələrindən birinə çevrilməsinin məntiqi nəticəsi, həmçinin, sadalanan uğurların Avropa səviyyəsində etirafıdır.

Ölkəmizin rəhbərinin bu gün dünya miqyasında qazandığı böyük nüfuz, nəhəng dövlətlərin başçıları ilə bərabərhüquqlu tərəfdaş kimi danışıqlar aparması, xalqımızın həqiqətlərini uca səslə bəyan etməsi bir daha sübuta yetirir ki, Heydər Əliyevin dövlətçilik ideyalarının, Heydər Əliyev yolunun alternativi yoxdur və bu yol xalqımızı yeni-yeni uğurlara, qələbələrə aparır.

Aslan ASLANOV,
YAP Siyasi Şurasının üzvü.